# Bakıda gənc hüquqşünaslar üçün "Lex Camp" düşərgəsinin açılışı olub













Yanvarın 14-də Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, ADA Universiteti, Almaniyanın Martin Lüter adına Halle Vittenberq Universitetinin təşkilatçılığı, Azərbaycan Respublikasının Gənclər Fondunun və Ədliyyə Könüllüləri İctimai Birliyinin dəstəyi ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində təşkil edilən "Lex Camp" - qış düşərgəsinin açılış mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, ADA Universitetində keçirilən tədbirdə çıxış edən ədliyyə nazirinin müavini Abiddin Hüseynov 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" olduğuna diqqət çəkib: "Bu çərçivədə Ədliyyə Nazirliyi tərəfindən yeni və fərqli mövzularda tədbirlərin keçirilməsi planlaşdırılır. Ədliyyə Könüllüləri isə öz fəaliyyətlərində yeni aktiv fazaya keçəcəklər.

"Lex Camp" - qış düşərgəsində professorlarla gənc tələbələr mülkiyyət hüququ mövzusunu müzakirə edəcəklər. Düşünürəm ki, tədbirdən faydalanan gənc hüquqşünas tələbələrimiz gələcəyin parlaq hüquqşünaslarıdır".

ADA Universitetinin prorektoru Elkin Nurməmmədov qış düşərgəsində hüquq üzrə təhsil alan tələbələrin bir araya gəlməsinin ölkədə hüquq təhsilinə verilən dəyərin bariz nümunəsi olduğunu deyib: "Tərəfdaşlarla birlikdə keçirilən bu təşəbbüs gənc hüquqşünasların bilik və bacarıqlarını artırmaq məqsədi daşıyır. Təşəbbüsümüzün ənənə halını alacağına ümid edirəm. Qeyd edim ki, düşərgədə müzakirə edilən mövzu isə olduqca vacib məsələdir".

Martin Lüter adına Halle-Vittenberq Universitetinin İqtisadi hüquq institutunun direktoru, professor Kristian Tyetye və Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov qış düşərgəsinin tələbələrin karyerasında böyük rol oynayacağına inandıqlarını bildiriblər. Açılış mərasimindən sonra Konstitusiya Məhkəməsinin hakimi Rövşən İsmayılovun layihə iştirakçıları ilə seminarı təşkil olunub.

Qeyd edək ki, gənc hüquqşünaslar üçün Bakı və Lənkəran şəhərlərində yanvarın 14-dən 18-dək davam edəcək "Lex Camp" - qış düşərgəsi "Mülkiyyət hüququ: Müdafiə və məsuliyyət aspektləri" mövzusuna həsr olunub.

Ümumilikdə 60-a yaxın iştirakçını əhatə edən layihədə 5 gün ərzində mülkiyyət hüququ ilə bağlı müxtəlif seminarlar, praktiki təlimlər, nümunələr üzərində iş və panel görüşlərin təşkili planlaşdırılır.

Layihə çərçivəsində spiker qismində yerli və xarici professor heyəti və rəsmilərin iştirakı nəzərdə tutulur. Layihənin digər tədbirləri, eləcə də bağlanış mərasimi Lənkəranda təşkil ediləcək.

Azərbaycan. - 2025.- 15 yanvar (№8).- S.3.